


*"Azərbaycan" qəzetinin 80-ci nömrəsinin 1-ci səhifəsi*

Bazar ertəsi, 6 yanvar 1919-cu il, nömrə 80

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 3 rəbiülaxir sənə 1337. 6 kanuni-sani sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrinküncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## BAKI, 6 KANUNİ-SANİ [YANVAR]

### Məhv və nabud [yox] olmamıza razımı olacağız?

Qəzetəmizin bugünkü nüsxəsində dərc edilən İrəvan və Qarabağ müsəlmanlarının fəryadları, yəqinən [şübhəsiz] ki, bütün müsəlmanların qəlbini od kimi yandıracaq. Böylə xəbərləri, müsəlman əhalisinə rəva görülən bu qədər cövr və sitəmi oxuyub bildikdə, qəlbində insanlıq və islamlıq hissiyatı olan bir zat [şəxs] tapılmaz ki, soyuqqanlılıq saxlayıb halitəb'dən [özündən] çıxmasın. Buna görə də rəsmi bir qəzetə mühərriri üçün bu məsələdən bəhs etdikdə "rəsmiyyət" yolunu təqib etmək lüzumiyyəti qarşısında olması can sıxındırıcı bir haldır.

Əvət, İrəvan müsəlmanlarının əsəfəngiz [acınacaqlı] halı bizə çoxdan məlumdur. "Daşnaksutyun" adlı erməni quldurlar firqəsinin "qəhrəmanı" Drolar, iki yüz ədəd islam köylərini top-tüfənglə xak ilə [yerlə] yeksan etdiyi hamımızın yadındadır.

"Zaqafqaz Seym[i]" namını daşıyan ölkə hökuməti ol vəqt quru "təsəlli"dən başqa bir şey edə bilmədi. Xatisovlar Gegeçkoriyə açıq-açığa dedilər: əgər gücünüz varsa, buyurun meydana!

İrəvan müsəlmanlarının bilmərrə [tamamilə] məhv olub gedəcəyinə şəkk-şübhə ola bilməzdi. Yalnız osmanlıların vürudu [gəlişi] onların canını qurtardı. İndi isə Müttəfiqlərin vürudundan sonra Osmanlı qitəatı [birlikləri] Qafqazyanı boşaltdı və Müttəfiqlər öz bəyannamələrində söyləmişlər ki, Qafqazın mühafizə məsələsini bundan sonra onlar öz öhdələrinə götürürlər. Lakin türkləri tələsik Qafqazyanı boşaltmağa məcbur edən Müttəfiqlər, orada yaşayan millətlərin mühafizəsini təmin etmək məsələsində bir qədər yanlışlıqlara uğradılar. Onlar öylə güman etdilər ki, Ermənistan Cümhuriyyəti denilən məhəl [yer] yəqinən Azərbaycan və Gürcüstan cümhuriyyətləri kimi bir məmləkət olub, orada "demokratik" əsası ilə bir qayda və nizam vardır. Orada yaşayan millətlər Azərbaycan və Gürcüstandakı kimi müsaviyyülhüquq [bərabərhüquqlu] olub bir-biri ilə ülfətlə dolanırlar.

Lakin, heyhat! Onlar bunu bilmədilər ki, Ermənistan denilən məhəl, insan və islam qanına yerikləyən yırtıcılar əlinə keçmişdir ki, qarşılarında qüvvə gördükdə tülkü kimi nəvaziş göstərirlər. Lakin bir qədər özlərini güclü hiss etdikdə, binəva

islam əhalisinin qanını su yerinə içirlər. Çox təəssüflər olsun, bunu onlar düşünmədilər. Əgər düşünmüş olsaydılar, ehtimal ki, həmin quldurlar yurdunda qayda və nizam saxlayan Osmanlı qoşununu ol vəqt çıxartmağa məcbur edərdilər ki, özləri onların yerini tutaydılar. Öylə olmadı. Osmanlı qoşunu getdi və onun dalınca islam qanına həris olan yırtıcı quldurlar dəstəsi gedib islam qanı ilə əlvan [boyanmış] bayraqlarını türklər boşaltdığı yerlərdə və məhəllərdə səbt etdilər [asdılar] və öz yollarını minlərcə islam balalarının meyitləri ilə təfriş etdilər [döşədilər].

Kəza [eləcə də] Zəngəzur cəhətində... Nə qədər ki, türklər Qarabağda idilər, erməni yırtıcıları müsəlmanlarla “pişiyim-pişiyim” edirdilər və öz "ixlas [səmimiyyət] və sədaqətlərini" bəyan edirdilər. Elə ki türklər getdi, həman "müxlislər" [səmimilər] qurd kimi qonşu müsəlmanların üstünə düşüb onların qanlarını axıtmağa şüru etdilər [başladılar].

Bakı cəhətində bir nəfər erməninin burnu qanayanda özlərini yırtan və Müttəfiqləri bizim əleyhimizə təşviq edən erməni və rus  qəzetələri nə üçün bu minlərcə tələf olan məsum islam əhalisindən bir ləfz [kəlmə] belə söyləməyirlər?

Və nə üçün Ermənistanda və Qarabağda islam əhalisinə edilən məzalim [zülüm], bir nəfər erməninin qarət edildiyindən və ya bir nəfər rus kəndçisinin bir girvənkə arpası alındığından naşi [ötrü] edilən bağırtı və çığırtıdan xəfif çıxır?

Və nə üçün indiyə kimi bu məzalimə bir nəhayət  qoyulmamışdır? Nə üçün Azərbaycan türk və islamları erməni quldurlarının əlində qırılıb məhv olan qardaşlarının və namuslarına təcavüz olunan bacılarının dadü fəryadına ciddi surətdə yetib, uca səslə həm ermənilərə, həm Müttəfiqlərə və həm də bütün aləmə deməyirlər:

– Biz qonşularımızla və bütün millətlərlə – istər kiçik, istər böyük olsun – sülh və müsalimət [əmin-amanlıq] üzrə dolanmaq istəriz. Lakin bununla belə, məhv və nabud [yox] olmamıza bir an razı ola bilmərik. Müdafiə haqqı bütün dövlətlərin qanunlarında mövcuddur. Siz bu fəlakətlərə, bizə olunan bu məzalimə ciddi surətdə bir nəhayət qoysanız, bizi özünüzə minnətdar etmiş olarsınız. Əks surətdə isə biz özümüz öz namusumuzu, canımızı və malımızı var qüvvəmizlə müdafiə etməyə məcbur olacağız.

Nə üçün böylə bir qəti və ümumi çıxış indiyə kimi icra olunmayır?

## MƏHV OLAN MİLLƏT KÜTLƏSİNİN NALƏSİ QARABAĞ VƏ İRƏVAN MÜSƏLMANLARININ ƏHVALİ-FƏCİANƏSİ

**Andranik əşqiyasının məzalimi [Andranik quldurlarının zülümləri]**

Kanuni-saninin [yanvarın] 4-üncü günü Ordubad müsəlmanlarından bir nəfər nümayəndə sifətilə əlində Zəngəzur və Ordubad müsəlmanlarının əhvali-məlaləngizi [hüzün verən halları] müxatirələrilə [xatirələrilə] bir qaç [bir neçə] sənədlər gətirib gəlmişdir.

Məktubların birindən anlaşıldığına görə, yollar çox xətərli olduğu üçün nümayəndələr gəlməyə çox qorxurlar. Bu bir nəfəri də Allaha pənah göndərmişlər,

ya öləsi, ya qalası.

Oranın əhvalından nümayəndənin verdigi məlumat, artıq dərəcədə acınacaqlı və qəmfəzadır [kədərlidir]. Andranikin əşqiya dəstələri, qarşılarına düşən müsəlman kəndlərini, müqavimətsiz olursa, əzəlcə yəğma və qarət edirlər. Sonra isə xalqını qılınc və güllədən keçirirlər. Müqavimət göstərirlərsə, kəndləri odlar ağzında napədid [yox] edirlər. O, ətrafı dağıdarkən, ona bu barədə ingilislərdən əmr ver[il]diyini bildirir. (?!) Zəngəzur və İrəvan mahalında olan müsəlmanların bu tezliklə imdadına gedən olmazsa, bu vəhşi ermənilər oradakı müsəlmanları yox etməkdən heç də çəkinməyəcəklər.

**İmdad diləyi**

İşbu nümayəndənin gətirdigi bir məktubda, Ordubad müsəlmanlarının halı bir az da aydın təsvir edilir. Biz də bu məktubun lisanına toxunmadan dərc ediriz:

*"Bəradər! İşlər günü-gündən şuluxlaşır. Böylə ki, şəqi [yolkəsən, quldur] ermənilər İrəvan tərəfindən başlayıb müsəlman köylərini dağıdıb qətl və qarət edirlər. Bir tərəfdən Qarabağ erməniləri Qarabağ köylərini dağıdıblar və dağıtmağa məşğuldurlar.*

*Həmin ki, Lehvaz çayı, Aldərə, Nüvədi, Əli Oxçu, Şabadin, Mə'dən, Qaragöl, Qaraçimən, Şahidli və Burunlu, Əsgərlər kəndi, Tey, Vartanəzir, Tuğut, Mərzigit tamamən məhv və tarmar olublar. Bəzisi salamat qaçıb İran və Ordubada gəliblər. İndi isə küçələr, məscidlər yetim uşaqlar və bisahib övrətlər ilə doludur. Bu məzlumlar acından və soyuqdan gündə on beş nəfərə qədər ölürlər. Bizlərin halı çox fəna, özümüz də səfərbərlik halında yaşayırız. Gecə-gündüz bilaaram səngərlərdə və pusquda olub əsgəri təlim yapmaqdayız.*

*Qərəz, bilməyirəm səbəbi nə isə Allah bizlərdən nəzərini götürüb ki, ölümə müstəhəqik [layiq olmuşuq]. Yenə Rəbbi-cəlildən [cəlal sahibi, uca Allahdan] əlimizi üzməyirik və axırımcı nəfəsimizədək müdafiə etməyə hazırıq. Görək Allahi-zişan [şanı uca Allah] nə yapacaqdır. Ölümdən qorxmuruz, lakin heyf olsun ki, bizim islam hökuməti bu anadək bu tərəflərin halını nəzərə almır. Məgər bizlər məhv olandan sonra bizim halımıza qalacaqlar? Məgər millətі-islam şəqi [quldur] ermənilərin ayaqları altında əzilib gedəndən sonra ayılacaqlar? Axır ki, bu kağız sizə vüsul olan [çatan] kimi hökumətə, əhaliyə və bəlkə cəmi şəhərlərə, qəzetələrə, əcnəbi dövlətlərə, gürcü qonşumuza qışqırıq salıb dünyaya bizlərin halını xəbərdar ediniz. Belə olmaz ki, bir ucu İrəvan, bir ucu Şuşa, bir milyon islam hamısı ermənilər əlində məhv və nabud olsun. Əcəba nə yazım? Bisahib qalmağımızımı söyləyim, dağılmağımızımı söyləyim, yainki dağılan köylərin əhalisinin səhralarda acından və soyuqdan sızıltısınımı şərh edim? Və yainki millətі-islamın ölüm yuxusuna getməyini yazım?*

*Xülasətülkəlam, yazmaqla başa gəlməz. Görək bəlkə Xudavəndi-əhədiyyət [bir olan Allah] bir səbəb sala, bizləri də bu bəladan və bu fəlakətlərdən qurtara. Əlbəttə, bizim bu halımızı qəzetələr vasitəsilə bu gün cahana bildirməlisiniz ki, bəlkə bizlərə bir yerdən bir sərəncam çəkilə. Ümidimiz haqqadır. Ayrılıq əlimizi sizə uzadırıq, bəlkə görüşə bilmədik.*

*Əqəll: Hüseyn Hüseynov"*

**Yenə imdad istəyirlər**

Yenə imdad üçün Təbriz şəhbəndərinə [konsuluna] böylə bir teleqraf çəkilmişdir:

*(Surət)*

*Səvadi eyni telegraf ki əz-Naxçıvan vükəlayi-səkəneyi-Naxçıvan, Ordubad, Şərur və rəisi-hökuməti-məhəlliyyə Əmirzadə dər-Təbriz bə-şəhbəndəri-xaneyi-dövləti-cümhuriyyəti-müslimini-Qafqas müxabirə minümayənd.*

*Xidməti-cənabi-konsuli-hükuməti-Azərbaycan Rauf bəg: quvvayi-müsəlləhi-Əramənə Qəmərlu, Sədərək, Dəmirçi və xeyli qəryə-hara qətliam nümudə bəsərma əz hər-tərəf həmlə vü hücum minümayənd. Dər-Şərur zən beçə-ha dərbeyaban-ha firar nümudə vü tələfat mişəvənd. Dər in-barə bə-hüzuri həzrəti-əqdəsü bala vəliəhdi-ərvahinafəda ərz. Nümudim əz-cənabi-ali rica vü isteda minəmayəm bə zənanü ətfal yek milyon ki dər xari-nehri-Aras sakin-əst rəhmnümudə-cülu in bəla-ra bəgirid. Konsulxayi-düvəli-müəzzəmə xassə konsuli-dövləti-ingilis və Amerika-ra ittila bəd hid ki bəzudi cülu hərəkati-vəhşiyaneyi-Əraminə-ra giriftə mara xilasi-nümayənd. Bə-əlavə isteda minümayəm ki əhvali mara telegrafa bə-hökuməti-Azərbaycan dövləti-ingilis ki dər-Tiflis və Baku həstənd ittila bədhid.*

*Əhaliyi-islam səkəneyi-Naxçıvan, Şərur və Ordubad, rəisi-hökuməti-məhəlliyyə Əmirzadə.*

Böylə bir teleqrafın alındığını verdiyi surət zirində [altında] müvəqqəti şəhbəndər [konsul] Rauf bəy təsdiq edir və möhürünü səbt edir [möhürünü qoyur].

*Qafqaziya müsəlmanları cümhurinin Təbriz şəhbədərxanası.*

*(Möhür)*

**Zəngəzur əhaliyi-islamiyyəsinin [müsəlmanlarının] fəryadı**

Eynən:

Bir ay bundan əqdəm [qabaq] təkrar erməni çeteləri [quldur dəstələri] əsakiri-mənsurənin təxliyyəsindən kəsbi-cəsarət edərək [Osmanlı ordusunun çıxmasından cəsarət alaraq], yüz para köylərimiz qarət və yəğmaya mübtəla olub da, aralıqda minlərcə əhalimiz kəsilib, qanlar seylabi-bəla [bəla seli] kimi torpaqlarımızı qızartdı. Tamam xak ilə yeksan olub da bayquşlar yatalqası [yatağı] oldu. Namus və şərəfi-milliyyəmiz ayaqlar altına alınıb əzildi. Haraya gedərsən islam qaçqınları, hangi tərəfə baxarsan zavallı qız və qadınlarımızın sızıldamaları...

Əcəba nə vaxta kimi bu məntəqədə islam və türk qardaşlarınızın əzilib, məhv olub getməsinə millət qardaşlarımız kənardan biganələr kimi tamaşaçı olacaqdır?

Nə vaxta kimi ermənilərin zavallı millətimizə qarşı olan əşqiyalığı [quldurluğu] davam edəcəkdir?

Nə vaxt Yevropa, Amerika milliyyətpərvərləri bizim də məntəqəmizə girib, millətimizin hüququnu kəndi əlinə alcaqdır?

Yaxud nə vaxt Gəncə, Badkubə millət qardaşlarımız məntəqəmizdəki qardaşlarını arayacaqlar?

Millətimiz bu məntəqədən təmizlənib, torpaqlarımız erməni əşqiyalarına məskən, heysiyyəti-milliyyətimiz qırılıb amal və arzularımız məhv və nabud edildikdən sonramı? Düşmənlərimiz fürsəti fövt etməyib var qüvvələri ilə bir gün əvvəl [mümkün olan ən qısa müddətdə] amali-milliyyələrinə [milli məqsədlərinə] nail ol-

mağa çalışıb müvəffəq olmaqdan sonramı?

Daima məntəqəmizin bir an əvvəl Ermənistana qoşulmasına sərfi-hümmət edirlər [çalışırlar]. Daima Ararat Cümhuriyyətinin Türkiyə hüdudundan başlayıb Şişə istiqamətinə qədər istifadə edirlər. Ümum millət və dövlətlər çarpışmasını bir anda bir sükuti-ümumiyyətə təbdil edən [ümumi sakitliyə çevirən] mütarikə [atəşkəs], erməni hökumətinə əsla təsir etməyib daima əşqiyalar naminə kəndi məsləki və kəndi niyyəti yolunda belə çalışırlar. Bu qədər əşqiyalıq qarşısında millətimiz tərəfindən heç bir tədabir ittixaz edilməsi [tədbir görülməsi] müşahidə olunmayır və millətimizdəki ədəmi-fəaliyyət [hərəkətsizlik, tənbəllik], idarələrimizdə olan süstlük, əhalimizin qüvvəti-mənəviyyəsini erməni hücumundan daha artıq və daha əsəfnak [təəssüflü] bir halda qoymayırmı?

Gəncə və Bakı qardaşlarımız tərəfindən yaxın bir zamanda bizim üçün bir iqdamat olunmazsa [addımlar atılmazsa], bu tərəflərin əhvalına vaqif olmaqdan ötrü bir heyət göndərilməzsə, təşkilat təqviyəsi [gücləndirilməsi] və əhalinin ruhunu yüksəltmək üçün lazımi miqdarda əsgəri məmurlar ezam edilməzsə, az bir zamanda məntəqəmizin alt-üst olub dağılmasına və milliyyət əsası üzrə yapılan sülh zamanında, millətimizin bu yerlər[ə] əbədilik bir əlvida deməsi üçün heç bir şəkk və şübhə olmadığı məlumdur.

Fövqəlzikr [yuxarıda yazılan] məlumatı millətimizin nümayəndəsi ədd [hesab] olunan Gəncə türk müəssisələrinə tövdi edib [tapşırıb], bir an əvvəl məntəqəmizdə türklərin və islamların sülhi-ümumiyyətə kimi məhv olub dağılmaması üçün ciddi və qəti tədabirin ittixazı və lazımi miqdarda əsgəri, siyasi və mülki məmurların təşkilatımızın təqviyəsi [gücləndirilməsi] üçün rica və hali-əsəfnakımızın [acınacaqlı halımızın] cəridələrimiz [qəzetlərimiz] vasitəsilə ümum düvəli-müəzzəmələrə [bütün böyük dövlətlərə] məlum edilməsi istirham [xahiş] olunur.

*Milli Məclis sədrinin müavini:*
*Cavad Cavanşir*
*Üzvi-Məclis [məclis üzvü]:*
*Molla Haşim Səidzadə*

**İrəvan müsəlmanlarının təşəbbüsü**

Srağagün yanvarın 4-də İrəvan quberniyasının Bakıda yaşayan əhalisi nümayəndələri, 2 yanvar tarixli iclasın qərardadına əməl olmaq üzrə İrəvan quberniyasında müsəlmanların düçar olduqları həlakət [ölümcül hadisələrə] və fəlakətlərə xitam verilməsi üçün aşağıda yazılan təşəbbüslərə iqdam etmişlərdir [addım atmışlar]:

T. b. Makinski, Paşa bəy Bayrambəyov, Rəşid bəy İsmayılov və Əziz bəy Sultanov iclasın qərardadına görə general Tomson hüzuruna gedib, İrəvan quberniyasına İngiltərə qüvvəsi göndərilməsini xahiş etmişlərdir. İngiltərə qüvvəsi göndərmək mümkün olmazsa, Ararat Hökumətini, erməni quldur dəstələrinin vəhşiyanə hərəkatı əleyhinə ciddi tədbirlər görməyə məcbur etməlidir. Bundan əlavə, İrəvan quberniyasının erməni və müsəlman əhalisinə dəyən zərəri aşkar edib, müqəssir tərəfindən almaqdan ötrü müştərək bir komissiya göndərməlidir.

General Tomson nümayəndələrə demişdir ki: İrəvan quberniyasına göndər-

məyə qüvvə yoxdur. Lakin İrəvan quberniyasında olan İngiltərə zabitlərinə yazıb xəbər veririk ki, İrəvan quberniyası müsəlmanlarının mənafeyini mühafizə etsinlər.

Bunlardan əlavə, [Məhəmməd] Məhərrəmovla Makinskiyə həvalə olunmuşdur ki, İrəvan quberniyası müsəlmanları əhvalı haqqında Azərbaycan Parlamanına bəyannamə ilə müraciət etsinlər. Azərbaycan Parlamanının İrəvan quberniyası üzvlərindən xahiş edilmişdir ki, İrəvan quberniyası müsəlmanları haqqında Azərbaycan Hökumətinə istizah [sorğu] versinlər. İrəvan quberniyasında müsəlmanlar əleyhinə olan erməni dəstələrinin hərəkəti haqqında Şurayi-Vükəla Rəisinə [Baş Nazirə] müraciət edilməsi dəxi qərara alınmışdır.

İrəvan quberniyasında olan erməni quldur dəstələri əleyhinə ciddi tədbirlər görülməsi Azərbaycan Hökumətindən xahiş edilmişdir. Əziz bəy Sultanov ilə Yusif bəy Tahirova həvalə olunmuşdur ki, həmvilayətlər cəmiyyəti təşkil etməkdən ötrü bu yaxın günlərdə Bakıda yaşayan İrəvan quberniyası əhalisini dəvət etsin.

## SÜLH ƏTRAFINDA

London – Gələcək Sülh Konfransının rəisliyinə (prezident) Klemansonun intixab ediləcəyi [seçiləcəyi] zənn olunur. Baş və ən mühüm məsələlər bütün dövlətlərin sülh nümayəndələrinin iştirakı ilə müzakirə ediləcəkdirlər. Bundan əlavə, əvvəlcə məsələləri hazırlamaq üçün iki böyük komisyon təşkil ediləcəkdir. Bu komisyonlara hər iki müharib [savaşan] dövlətlərin nümayəndələri seçiləcəkdir. Amerka senatoru Lodja, Vilsonun sülh maddələri hazırlığı vagüzar ediləcəkdir [tapşırılacaqdır] ki, onlar Millətlər İttifaqına, dənizlərin azadlığına, məxfi diplomatiyaya və təslihin [silahlandırmanın] artırılmasına dairdir. Lodj bəyan edir ki, bu əsasları yeritmək üçün böyük qədəmlər götürmək, bütün sülh danışıqlarını xələldar edə bilər.

**Sülh Konfransı heyəti**

İstanbul – Dekabrın 24-ündə Londondan çəkilən simsiz teleqrafla xəbər verilir:

“Deyli nyus” qəzetəsinin məlumatına nəzərən [görə], Almaniya ittifaqı nümayəndələri ilə olacaq Sülh Konfransı yanvarda, Versalda dəvət ediləcəkdir.

Fransa tərəfindən Klemanso, Brian, Tardyö və Burjua göndəriləcəklərdir.

İngiltərə nümayəndələri isə Lloyd Corc, Balfur, Redinq; müstəmləkələrdən və əmələlərdən [fəhlələrdən] də bir neçə nümayəndə olacaqdır.

Amerika tərəfindən isə Rəisi-cümhur [prezident] Vilson, sabiq Xariciyyə vəziri Rut, Lansinq və polkovnik Hauz iştirak edəcəklərdir.

## GÜRCÜ-ERMƏNİ TOQQUŞMASI

**Mütarikə [atəşkəs]**

Erməni Lori dəstəsi komandanı general Silikovun teleqramı.

*“Qarakilsədən erməni qoşunları Ərkani-hərbindən [Baş qərargahından], 2 yanvar 1919.*

*Bir neçə müharibədən sonra biz Şüləverdən Sadaxlıya çəkildik (axrıncı*

*xəbərlərə nəzərən Sadaxlı da gürcülər tərəfindən işğal edilmişdir). Müttəfiqlərin təklifi üzərinə Sadaxlı-Dmanisi xəttində Gürcüstanla Ermənistan arasında mütarikə əqd edilmişdir [ataşkəs imzalanmışdır]. Bizim nümayəndələrimiz general [Qavriil Qriqoryeviç] Karqanov, Martirosov, Artunyans Tiflisdədirlər.*

*Silikov"*

Gürcüstan qoşunlarının ştabı xəbər verir: Gürcüstan Hökuməti binagüzarlığı [sərəncamı] ilə dekabrın 31-i saat 24-də bütün xətti-hərbdə [cəbhə xəttində] müharibələrin dayandırılmasına əmr verilmişdir. Belə ki, ermənilər müharibə başladıqları yerə çəkilməli, gürcülər isə işğal etdikləri yerləri əllərində saxlamalıdırlar.

## QƏZETƏLƏRDƏN

**Bolşeviklərin vəziyyəti**

Xarkov qəzetələrinin məlumatına nəzərən, Müttəfiqlər tərəfindən Kronştadt işğal edilmişdir. Kronştadt matrosları Müttəfiqlərin tərəfinə keçmişlərdir.

**Petroqradın halı**

Petroqradın süqutu gözlənir. Petroqrad ətrafına külli surətdə qoşun cəm edilmişdir. Müttəfiqlərin hücumu münasibətilə bolşeviklər arasında şiddətli həyəcan vardır. Bolşeviklərin başçıları əcnəbi məmləkətlərinə getmək üçün pasport hazırlayırlar.

* Liflandiyada başlanmış olan bolşevik hərəkətləri şimdi qətiyyən tərk edilmişdir.

**Bolşeviklər və əhali**

Pyatiqorsk, Həsəntuki və Kislovodsk şəhərləri büsbütün bir xəstəxanaya dönmüşdür. Minlərlə Qırmızı ordu (krasnıarmeyes) nəfəratı [əsgərləri] tibbi müavinət [yardım] olmadığından ölürlər. Əhali aclıq və bolşeviklərin qarətindən artıq əziyyət çəkir. Bolşevik komissarları camaat şeylərini müsadirə edərək, onlardan təzminati-hərbiyyə [hərbi təzminat] alırlar və sonra bunların kaffəsi [hamısı] qarət edilən şeylərlə bərabər gizlənirlər.

**Kubanda**

Nikolayev təriqi [yolu] ilə Yekaterinodardan xəbər verilir:

Bu gün Fövqəladə Kuban Radası tərəfindən qoşun atamanlığına Filimonov intixab edilmişdir [seçilmişdir]. Atamanlığa namizədliyini qoymuş olan hökumət rəisi Bıç qaralanmışdır. Rada Filimonovu qayət səmimiyyətlə alqışlamışdır. Filiminovun atamanığa intixabı Müttəfiqlərin heyəti və Könüllü ordu komandasını artıq məmnun buraxmışdır. Rada tərəfindən yeni intixab edilmiş olan Filimonov, ən ciddi cümhuriyyətçi, azadiyi-millət [müstəqillik] tərəfdarıdır.

Polkovnik Filimonov, Kubanda ən nüfuzlu bir zatdır. Mümaileyh [adı çəkilən şəxs], ələddavam [davamlı surətdə] irad etdiyi [söylədiyi] nitqlərində Rusiyanın ancaq federasyon əsası ilə cümhuri bir dövlət ola biləcəyini iddia edir. Kuban da Rusiya Federasyon cümləsinə daxil olmalıdır. Ancaq bu şüar ilə Kuban kazakları könüllü dəstələr cərgələrində mübarizədə davam edə bilərlər. Kuban qoşun atamanı, Kuban məmləkətinin və Kuban əsgərlərinin başçısı hesab olunur. Divan-

da [məhkəmədə] tənbehə [cəzaya] düçar olanların cəzalarını bu ataman bağışlaya bilər və əskildər. Qoşunlar atamanı, mülki və hərbi məmurlar təyin edər və onlara rütbə verər. Qanun tərtib edən Radanın qərarlarını ataman iki həftə müddətlə təsdiq eylər və sonra onları ümumara [ictimaiyyətə] elan eylər.

* Sevastopol – Kuban Radası sədri Filimonov qəzetəçilərlərlə müsahibə edərkən demişdir ki, Kuban Radası, federasyon əsası ilə ancaq Rusiyanın ehya ediləcəyini [dirildiləcəyini] zənn edir. Nəhayət, Kuban Hökuməti diktaturanın qətiyyən əleyhindədir.

**Ukrayna inqilabiyyun [inqilabçı] firqələrinin əsası**

Kiyev – “Trudavaya qazeta” yazır: Bütün Ukrayna sosialistlərinin ümumi bir xətti-hərəkət əsası təşkili üçün müttəhidən [birgə] iclasları vaqe olmuşdur. Firqələrin əksəri işbu əsaslarda bu rəyə gəlmişlərdir: Ukraynanın istiqlaliyyəti, Qaliçya ilə birləşmək, bütün dövlətlərə qarşı bitərəf olmaq, daxili işlərdə isə Zəhmət Konqresi, yerlərin və bəzi ticarətxanaların ümumiləşdirilməsi və ticarət üzərində kontrol təyini.

**Lehistan Demokratik Cümhuriyyəti**

Berlin – Simsiz teleqrafla xəbər verilir: Varşavadan verilən əlavə məlumata nəzərən, Lehistanda demokratik üsulu təşkil edilir. Regent Şurası, məmləkətin bütün ümuri-idarəsini [idarəetmə işlərini] hərbi diktator Pilsudski ixtiyarına vermişdir. Pilsudski demokratik firqələri nümayəndələri ilə danışıqda bulunduqdan sonra Lublin[dəki] milli hökumət başçılarından olan Daşinskinin təhti-sədarətində [sədrliyi altında] yeni bir hökumət təşkilinə qərar vermişdir.

**Lehistan sərhədi**

Varşava – “Qolos naroda” qəzetəsinə Polşadan yazırlar: Etilaf [Antanta] dövlətlərinin Lehistan barəsində olan təklifləri Vilson təklifindən o yana keçir. Etilaf dövlətləri təklif edirlər ki, nəinki yalnız polyak yerləri, hətta əksəriyyəti polyak təşkil edilən yerlər də Polşaya verilməlidir. Böyləliklə bütün Yuxarı Sileziya polyaklara keçir. Bundan əlavə, bütün müharibədən gördüyü xəsarəti Polşa, Almaniyadan almalıdır.

**Prens Salarüddövlənin həbsi**

“İskra”nın yazdığına görə, dekabrın 28-də Hacı Pirus kəndi yanında “Konkum” paraxodundan ingilis dəstəsi enib, orada olan İran şahzadəsi Salarüddövləni həbs edib, Tazəşəhərə gətirmişlər imiş.

**Hindistan nümayəndələri**

Hindistan sülh mürəxxəslərindən [nümayəndələrindən] 15 nəfəri Londona varid olmuşdur [getmişdir].

* Berndən verilən məlumata nəzərən, Almaniya qəzetələri xəbər verirlər ki, fransız əsgərləri Visbadeni işğal etmişlərdir.

## TÜRKÜSTAN HEYƏTİ-MÜRƏXXƏSƏSİ İLƏ MÜSAHİBƏ

Qəzetəmiz mühərrirlərindən [müxbirlərindən, yazıçılarından] birisi ilə İstanbuldan şəhərimizə təşrif gətirmiş Türküstan

heyəti-mürəxxəsəsi[nin] [nümayəndə heyətinin] görüş[ü] əsnasında aşağıda bəyan edilən məlumat alınmışdır:

“İstanbula çoxdan bəri getmişdik. Azərbaycan mürəxxəsləri [nümayəndələri] orada ikən, onlarla görüşərdik. Vətəndən çıxandan bəri, orası nasıl yaşadığından müsəddəq [təsdiq edilmiş] məlumatımız yoxdur. Təəssüflər ki, bütün Türküstan üçün (Türküstan dedikdə mən təkcə Zakaspi ölkəsini götürməyirəm; siz də, biz də türk, vətənimiz də Türküstandır, əfəndim), iştə söylədiyim ölkəmizin ümumuna göz mənzələsində [göz yerində, dərəcəsində] olmuş Azərbaycan, mavərayi-Xəzərdə [Xəzərin digər tərəfində] yaşayan qardaşları həyatından müxbir [xəbərdar] deyil. Bu gün hazırda və yeni paydar [bərqərar] olmuş hökumətlərin, dövlətlərin həpsinin gözü fəqət [yalnız] buradadır, fəqət [yalnız] buradan imdad istəyəcəklər. Sizin öhdənizə qardaşlıq haqqı olaraq, digər dövlətlər üçün də çalışmaq vəzifəsi düşəcəyi təbiidir. Zənnimizcə, müştərək hökumətiniz təşəkkül etdikdən sonra, digər qonşularınızla, xüsusən qardaşlarınız Şimali Qafqaziya və mavərayi-bəhri-Xəzərlə bərabərlikdə çalışmağa Azərbaycan cəhd edəcəkdir.

İstanbul həyatı bir çox cəhətdən fəna deyildir. Həyat orada yarı-adi bir tərzdə keçir. Yenə də cəmiyyətlər, konfranslar, məktəblər, digər ictimai idarə və müəssisələr, həpsi öz qaydası ilə gedirlər. Həyati-ictimaiyyədə [ictimai həyatda] bircə dəyişiklik görülürsə, o da müharibə bitdikdən sonra kabinələrin [hökumətlərin] çox az ömür sürmələridir. Onun da səbəbi ildırım sürəti ilə biri-birini təqib edən həvadis [hadisələr] olsa gərək. Görürsünüz, Tələt Kabinəsi müharibə yapdı, onun kabinəsi düşdükdə İzzət paşa Kabinəsi gəldi. O da mütarikə şəraitini [atəşkəs şərtlərini] qəbul etdi və zaman iqtizasınca [zəmanənin şərtlərinə görə] bu, Məclisi-Məbusanın ədəmi-etimadınca [etimadını qazanmadığı üçün] iki tərəfdən istefaya məcbur oldu. Onun əvəzində Tofiq paşa Kabinəsi gəldi. Tofiq paşa Kabinəsi etilafçılardandır, Məclisi-Məbusan isə “İttihad və Tərəqqi” firqəsi əli ilə çağrılmış, onun üçün də Kabinəni pək qatı tənqid edəndir. Şimdi bu səbəblə etilafçılar, yeni Məcsili-Məbusan dəvətini qəzetələr vasitəsilə meydana atdılar.

Qalib paşa rəyasəti [başçılığı] altında müsalihə [barışıq] üçün hazırlaşan heyət çox ciddiyyətlə gələcək Sülh Konfransına məvadd [maddələr] hazırlayır. Bu heyətdə Müttəfiqlər nümayəndəsi də vardır. Qəzetələr də son zamanlarda əllərindən gəldikcə Tələt Kabinəsini tənqid edir, hətta məsuliyyətə almaq məsələsini də araya atmışlar. Etilafçılar bu gün üçün vətəni toplamaq, onun həp canlı qüvvələrilə bərabər işləmək əvəzində, var qüvvələri ilə ittihadçıları töhmətləməklə iştiğal edir [məşğul olur]. İttihadçılar isə bunlara heç alı verməzlər [aldırış etməzlər]. Bu yaxınlarda firqənin mərkəz komitələri əzası [üzvləri] toplandı, yeni komitə seçildi. Artıq bir “Təcəddüd” firqəsi də meydana çıxdı.

Türk əfkari-ümumiyyəsi [ictimai fikri] pək nazik [incə], pək həssasdır. Həqiqətən, nə qədər mətbuat firqəçilik nöqteyi-nəzərindən ifrata qalxışsa da, vətənə bir xətrə [təhlükə] gəldiyini ta uzaqlardan anlayacaqdır. Müttəfiqlər əsgəri qüvvəsini bir az artıran kimi, türk əfkari-ümumiy-

yəsi qələyana gəldi [coşdu], protestolar verdi. Müttəfiqlər o zaman İstanbulda çoxlanmış əsgərlərin Rusiyaya doğru gedəcəyini elam etdi [bildirdi] və bunların heç bir zaman türklər üçün bir təhlükəni haiz [təhlükə daşıyan] qüvvə olmayacağını andırdılar. İstanbul Rusiyaya atılacaq əsgəri qüvvə üçün bir üssülhərəkə [baza] kəsiləcəkmiş. Həqiqətən də o qüvvə sonradan bir hissə Odessaya göndərildiyini bildik.

İman edirəm ki, bu millət, vətənini heç bir zaman bəlaya uğratmayacaq və bu Cahan müharibəsindən aldıqları dərsləri kölgəsində daha nazik [diqqətli], daha ciddi siyasətçi olacaqlar. Lakin bir şey var ki, qəzetələr də, əfkari-ümumiyyə də bir çox şeylərdən müxbir deyildir. Mütarikə şəraitini bilməzlər. Bakıdan hənüz türk-islam orudusunun getdiyindən qəzetələrdə bir şey göründüyü yoxdur. Bunların məchul buraxılmasında müqəssir kimdir və müqəssirdirlərmi, orasını söyləməyəcəyəm.

Kabinələr gələr, kəndi işini yapar, vəzifəsini ifa edər, gedər. Məclisi-Məbusan bir çox yanlışları təshihə [düzəltməyə] çalışar. Bunlar həpsi öz yerində olması ilə bərabər, bugünkü Türkiyədə ən böyük iradə, Sultan həzrətlərinin kəndi əlindədir. Sultan isə dedikcə müstəid [bacarıqlı] və zəki bir zatdır. Millət də sultanı pək sevir. Hamıdan artıq ona etimad göstərir.

Qadınlara gəldikdə, həyati-ictimaiyyədə [ictimai həyatda] bunları erkəklərdən ayrı tutmaq imkan xaricindədir. Çünki bunlar da onlarla bərabər işlər, bəlkə onlara təvəffüq edər [üstün gələr]. Gənclərə gəldikdə, həpsində bir vətənpərvərlik, həpsində kultura, mədəniyyətə doğru yürümək kimi uca ideallar görülür.

Ümumiyyətlə bugünkü İstanbul, beş sənə demirəm, böylə iki sənə bundan iləriki İstanbul deyildir. Gündən-günə incələşmiş, həyat get-gedə təbii yolunu bulmağı bizlərə böyük ümidlər verməkdədir.”

Bə’d [sonra] söhbət Bakıdakı tətilə varıb, general Tomson tərəfindən fəhlələrə verdiyi vədələrdən bəhslə, müsahibimiz fikirlərini böylə bəyan etdilər:

“Bəzi hürriyyətlərin təmini ilə mətbuat da zənciri-qeyddən [əlini-qolunu bağlayan zəncirdən] azad olan kimi olmuşdur. Mətbuatın azadlığı arzu edilən bir şey olsa da, bu azadlıqdan bizimkilər deyil, müxaliflərimiz istifadə edəcəklər. Yazacaqlarını Avropa qulaqları pərdəsinədək yetişdirəcəklər. Bu növlə də Avropada kəndilərinə daha artıq mühibblər [dostlar], tərəfdarlar qazanacaqları aşkar işdir. Bizdə isə burada fəqət bircə türkcə qəzetəmiz var. Ondan keçdikdə, bizim qəzetələrin Avropaya getməsinə təşəbbüs edilməz. Onlar isə kəndi təşkilatları köməyi ilə hər birini Avropanın gözünə tıxar, diləyini ona andırar, kəndilərinə propaqandalar yapar. Ümum türk-islam dövlətləri, bilxassə Azərbaycan, satqın propaqandanın Avropa məhafili [dairələri] üçün əlzəm olduğunu nəzərə almayır. Bu isə ən vacib və ən mühüm bir şeydir. Siz söyləyirsiniz ki, bu barədə məsələ qaldırılmışdır. Arzu eylərdim ki, böylə xeyir işlər tez əmələ gələydi. Güman edirəm ki, qardaşlıq xatirəsinə, türklük şərəfinə Azərbaycan kəndisi üçün çalışarkən Avropa və yaxud başqa yerdə bizim Türküstanı da unutmaz. Bu gün hamısının gözü bircə buraya tikilmişdir.”

- *Gələcəkdə Türküstan üsuli-idarəsini nasıl düşünürsünüz?*

"Türküstanın gələcəyi bizi pək çox düşündürür, səbəbi də odur ki, Türküstanın bugünkü halı bizim üçün çox da aydın deyildir. Bir ay bundan əqdəm [qabaq] yenə də Türküstanda bolşeviklər tərəfindən yağma və qarətlər olduğu xəbəri eşidildi. Hələ orada bolşeviklərlə menşeviklər miyanında [arasında] mübarizə gedirmiş. Orada hind və ingilis ordusu da bolşeviklərlə döyüşürmüş. Fəqət yenə də həqiqəti-hal məhəllində [yerində] bəlli olacaqdır. Buradan bir qəti şey söyləmək olmaz.

Biz buradan Azərbaycan Hökumətinin gündən-günə Müttəfiqlər yanında kəsbihörmət etməsi [hörmət qazanması], Azərbaycan istiqlaliyyətinin möhkəmləşməsinə böyük bir dəlil olduğunu görməklə qəlbən şad oluruz. Bizi məsrur edən [sevindirən] yenə bir şey varsa, o da Azərbaycanın hökumət təşəkkülü üçün oxu-muş adamlarının be-qədri-imkan [imkan daxilində] var olduğudur. Bizdə isə bu yoxdur."

- *Sizlərin bir neçəsi Avropa Sülh konfransına gedəcəkmi?*

"Bəli, gedəcəkdir. Lakin əzəlcə vətənə gedib orada millət tərəfindən nümayəndələr seçmək lazımdır. Bizi İstanbula getmək üçün seçmişlərdi, Avropanın böyük sülh məhkəməsinə seçməmişlərdi. İştə onun üçün biz buradan vətənə gedəriz. Orada bizi seçsələr, gəlib Avropaya gedəriz. Lakin bizi qəmgin edən bir şey vardır ki, bizdə Azərbaycanda olan kimi müstəid [istedadlı] oxumuşlar yoxdur. Rusiya istibdadı bu neçə illərdə Türküstanı bir sağmal inək kimi daima sağmış, mədəniyyət nuru ilə oranı parlatmamışdı."

- *Atidə [gələcəkdə] Türküstanda nasıl bir idarə arzu edərdiniz? Madam ki, fəal və dəyərli kişilər [insanlar] yoxdur, o zaman Türküstan idarəsi kimə həvalə ediləcəkdir?*

"Bu isə Türküstan üçün ən qorxulu halətdir. Çünki burada çalışan var, Türküstanda isə biz gedib kimlərlə işləyə biləcəyik? Bolşeviklərləmi biz müttəhid [birgə] və müttəfiq işləyəcəyik? Türküstanda bolşevizm tamam mənası ilə bir quldurluq şəklinə girmişdir. Bu isə bütün əhalini və bizi bolşevizmdən ikrah edəcəyi [nifrət etdirəcəyi] aşkar işdir. Əhali Rusiyadan büsbütün üz çevirmişdir. Çünki, biz müstəbid Nikolaydan birdəfəlik döndüyümüz kimi, bolşevizmdən də döndük. Kerenski zamanı bizi əzəldə çox sevindirdi, fəqət sonradan Kerenskinin adi bir rus olması, bizcə, aşkar oldu. O[nun] da Türküstana bir müstəmləkəyə baxan kimi baxdığı görüldü. Onun üçün biz hər bir idarə altına girməyə hazır olmaqla bərabər, Rusiyanın təhti-idarəsinə [idarəsi altına] keçməmiz-dən çox narazıyıq. Türküstan üçün ən sağlam, atimiz [gələcəyimiz] üçün ən məntiqi yol varsa, o da Azərbaycan ilə Türküstanın birləşməsidir. Əhalinin də buna artıq rəğbəti vardır. Türküstanın hər nasıl olsa, Rusiya idarəsi altından çıxmasına bizdən başqa qeyrilərinin dəxi çalışacağı təbiidir. Çünki, Hindistanı və başqa ingilis müstəmləkələrini fəqət [yalnız] müstəqil Türküstan mühafizə edəcəkdir. Bu nöqteyi-nəzərdən, Rusiyanı əski qüvvəsinə olmasa da, onun yarısı halına gətirmək ümumi siyasət nöqteyi-nəzərincə pək namünasib olacaqdır. Xüda nəxastə [Allah göstərməsin] Türküstan Rusiya ida-

rəsi altında qalarsa, o zaman irtica mübəşşirləri [xəbərçiləri] qudurmuş qurd kimi Türküstan üzərinə atılacaqlardır. Və bütün var-yoxumuzu daşıyıb iç Rusiyaya aparacaqlarına şübhə yoxdur. Bizi Rusiyaya vermək istəsələr, Türküstan əhalisi başqa idarəni Rusiya hakimiyyətinə tərcih görəcəkdir. Hər halda indidən Türküstan haqqında qəti bir söz demək erkəndir. İnşallah Azərbaycanın çalışması ilə biz də bir gün səadətə nail olacağımıza şübhə etməyiriz."

*M. H.*

## HƏQQ-TƏALA RƏHMƏT BUYURSUN

* Keçən gün, Keşlə camaati-müslimin [müsəlman camaatı] köylülər miyanında [arasında] meydana çıxardığı birinci el xadimi olan Kərbəlayi Hacı Mirzə Quluzadə həzrətləri ilə axırıncı dəfə olaraq vidalaşıb, onu kədərli torpaqlar altına göndərdi. Şu möhtərəm əfəndi, bütün ömrünü el xidəmatına sərf edərək, axırıncı nəfəsinədək ümumiyyət rahatlığı mərhumun virdi-zəbanı [dilinin əzbəri] olmuşdu. Kərbəlayi Hacı Mirzə kəndisinin bisavadlığına baxmayaraq, camaatının mədəniyyəti və məktəbi uğrunda ağır zəhəmata mütəhəmmil olarak [zəhmətlərə dözərək], ümumun məhbubülqülubu [qəlbinin sevimlisi] olmuşdu. Həyatının son günlərini aclıq ölümünə məhkum edilən camaatına təqdim edərək: "Həqir vücudum nəyə qabil, hangi qism fəaliyyətə layiq isə sərf ediniz, mən müzayiqə edəmməm [əsirgəmərəm]" dediyi üçün camaat yekdil olaraq müşarünileyhi [adı çəkilən şəxsi] yeni təsis edilən "İrşad" müstəhlik [istehlak] cəmiyyətinə sədr intixab edərək [seçərək], cəmiyyətin bütün ağır məşəqqətlərini o vücudi-möhtərəmin öhdəsinə həvalə edir. Bir sənə tam idarə etdiyi "İrşad"ın həm sədri, həm prikazçiki, həm alıcısı, həm satıcısı vəzifəsini ifa edərək, sənə tamında [ilin sonunda] kəmali-mətanətlə əhaliyə, bir min rublə ilə bina edilən cəmiyyəti 40 min rublə nəqdiyyə ilə təhvil verib, bistəri-mərəzə [xəstəliq döşəyinə] çəkilmişdi. Şu qədər ağır məşəqqətlərə təkcə Quluzadə kimi möhtərəm el və insaniyyət xadimləri mütəhəmmil ola bilərdi.

İştə bunun üçün müşarünileyhin "İrşad"da çalışqan baqi-mandə [geridə qalan] zəhmət yoldaşlarına, aileyi-kədərdidəsinə [kədərli ailəsinə] və bilümum Keşlə camaati-müslimininə [müsəlman camaatına] bəyani-təziyət edərək [baş sağlığı verərək], Allahu-təala həzrətlərindən onlara səbri-cəmil əta olunmasını istirham və təmənna edəriz.

* Genə 28 kanuni-əvvəldə [dekabrda] Seyidzadə Bədrəddin əfəndinin pədəri-möhtərəmi [möhtərəm atası] Ağa Mirkazım Seyidzadə həzrətləri dari-bəqaya rəhlət edərək [əbədiyyət evinə köçərək, vəfat edərək], xaki-qüfrani-əbədiyyətə [əbədi mərhəmət torpağına] çəkildi. Şu möhtərəm babanın əbədi olaraq camaat miyanından [arasından] çəkilməsi, bütün Keşlə caamatı üçün bir müsibət, yas təşkil etdiyi mühəqqəqdir [qətidir]. Yetmiş beş sinninə [yaşına] varmış şu qoca seyid, el maarifi və tərəqqisi uğrunda olmazın zəhəmata [zəhmətlərə] qatlanaraq, irs qoyub getdiyi xidəmatı şayani-heyrət və təqdirdir [heyrətə və təqdirə layiqdir]. Xüsusən, yeni fikirli cavan fəallarımızla qo-

calarımız miyanında, kəndi nüfuzu sayəsində bir vasiteyi-irtibat [əlaqə vasitəsi] idi. Cavanlarımızın yeni fikrinə qocalar ziddiyyət göstərdikdə, əks-rəftara başladıqda, Mirkazım ağa kəndi müdaxiləsi ilə cavanlara təqviyyət [güc] verərək, hər zaman yeni fikirlərə tərəfdar, tərəqqi və təalimiz [ucalmağımız] yolunda artıq səy etmədən müzayiqə etməzdi. Bu sayədə bir çox acı sərzənişlərə qatlanıb, kinayələrə səbr edirdi. Şunca sətirə kifayə edərək ümid bəsləyiriz ki, gələcəyimizi Mirkazım ağanın həmsinnləri [yaşıdları], mərhumun yürütdüyü fikir və məsləkinə rəvac verərək, onun ruhunu şad və biz səfillərə rəhbər olaraq sərgərdan buraxmazlar.

Allahu-təala həzrətlərindən mərhumun aileyi-kədərdidəsinə, xüsusən Seyidzadə Bədrəddin əfəndiyə səbri-cəmil kəramət etməsini niyaz və istirham eyləriz.

*Ağababa Yusifzadə*

## BAKI XƏBƏRLƏRİ

* Həzrəti Məsih bayramı münasibətilə bələdiyyə idarələrində kanuni-əvvəlin [dekabrın] 24-ü (köhnə qayda üzrə) saat 12-dən etibarən işlər qət edilib [dayandırılıb], bütün 25, 26 və 27-sinədək iş olmayacaqdır.

* Bakı qubernatoru mənzil kameralarına [sahələrinə] dair Bələdiyyə İdarəsinə bir istihzah [sorğu] vermişdi. Bələdiyyə İdarəsi qubernatora cavab vermişdir ki, ən yaxın zamanda işbu məsələ Bələdiyyə Məclisinə veriləcəkdir.

* Mərkəzi Ev Komitəsi cənbindəki [nəzdindəki] kiçik komitənin iclasında doktor Bron, şəhərin hifzüssihhəyə [sanitariya-gigiyena qaydalarına] müğayir [uyğun olmayan] əhvalı barəsində bir məruzə oxumuşdur. Kiçik komitə qət etmişdir ki, məruzənin birər surətini general Tomson və Biçeraxova pişnihad [təqdim] edib, onların nəzərlərini buraya cəlb etməli, bu barədə "Kooperatsiya"ya da müraciət etməlidir. Qət edilmişdir ki, Mərkəzi Ev Komitəsi, Səhiyyə şöbəsinə 50 min rublə təxsis etsin [ayırsın].

* Dünən Mərkəzi Ev Komitəsi ilə kiçik komitənin müttəhid [birgə] iclası vaqe olmuşdur. İclasda əzadan [üzvlərdən] bir neçəsi üç dairədə intixabat [seçki] edilib, Mərkəzi Ev Komitəsi ilə mülhəq edildiyi [birləşdirildiyi] barəsində izahat verib, istefa vermək təklif etmişlər. Bu təklif hələlik qəbul edilməmişdir. Zira yekşənbə [bazar] günü yeni intixab olunacaqdır.

* Fəhlə muzdunun baha olduğu üçün dəmiryolu qiymətləri 1919 sənədə ucuzlaşdırılmayacaqdır.

* Ticarət və Sənaye Nəzarəti məhəlli [yerli] və gürcü müəssisədarları ilə bir çox müqavilə əqd etmişdir [bağlamışdır] ki, buradan cövhər aparıb əvəzində qənd gətirsinlər. Qəndin qiyməti 175 rublə[dən] 200 rubləyədək olmalıdır.

### Bakıdan ötrü ayaqqabı

Şəhərdə dəvəran edən [gəzən] şayiata məbni [şayiələrə görə], ən yaxın zamanda Bakı üçün ayaqqabı gətiriləcəkdir. Aldığımız məlumata görə, həqiqətən xüsusi Bakıdan ötrü Batuma 125-150 minədək ayaqqabı gətirilmişdir. Ehtimal ki, bunlar ev komitələri vasitəsilə əhali arasında təqsim ediləcəkdir [paylanacaqdır]. Şimdi-

likdə işbu şayiatdan naşi [ötrü] bazarda ayaqqabının qiyməti 500-dən 300 rubləyədək azalmışdır.

* İkinci uçastok ev komitələrinin ümumi iclasında Mərkəzi Ev Komitəsi tərəfindən adambaşına 30 qəpik alınması məsələsi müzakirə edilmişdir. Ev komitələri təşkilatının 20-ci maddəsinə əməl olunması qərara alınmışdır. Ev Komitəsinin məxaricini [xərclərini] örtməkdən ötrü ev kirayəsinin 10%-i kifayət etmədikdə, uçastok idarələri vasitəsilə Mərkəzi Ev Komitəsinə müraciət etməlidir. Ev Komitəsi sədrinin məsuliyyəti məsələsi şikayət edildikdə uçastok komitəsində baxılmalıdır.

* Düşənbə [bazar ertəsi] günü, yanvarın 6-dan başlamış ikinci uçastok ev komitəsi tərəfindən Bolşoy krepostnoy küçədə 47 nömrəli və Sadovı küçədə 34 nömrəli bürolarda girvənkəsi 3 manatdan çörək satılacaqdır. Bundan əlavə, girvənkəsi 3 manat 30 qəpiyə düyü, 5 manat yarıma səbzə, 1 manata burakı [qırmızı çuğundur] və 1 manat 20 qəpiyə soğan buraxılacaqdır. Ev komitələri ancaq düyü aldıqları zaman həyətdə yaşayan nüfusu [əhalini] yazıb göstərməlidirlər.

* Ticarət və Sənaət Nəzarətində [Ticarət və Sənaye Nazirliyində] mübadileyi-əmval [mal mübadiləsi] komisyonu təşkil edilmişdir. Mal dəyişdirilməsi haqqında oraya müraciət edilməkdədir.

## ƏRZAQ İŞLƏRİ

* Ərzaq naziri, Ticarət və Sənaye Nəzarətindən təvəqqe edir ki, Azərbaycan ilə Gürcüstan arasında ticarət xüsusunda bağlanmış olan əhdnamənin surətini Ərzaq Nəzarətinə göndərsin.

* Ərzaq Nəzarəti Çxeidzeyə icazə vermişdir ki, Gürcüstandan beş vaqon qənd gətirib, Azərbaycanda azadə surətdə satsın.

* Ərzaq naziri tərəfindən Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] xəbər verilir ki, cəmi dəmiryol istasyon naçalniklərinə məlum etməlidir, bundan sonra Azərbaycan sərhədindən keçən və Azərbaycana göndərilən bəzzaziyə mallarını [arşın malını, parçanı], Ərzaq Nəzarətindən icazə olmasa buraxmasınlar.

* Qroznı mahalına 500 arşın bez aparmaqdan ötrü Məhəmməd Şərifova Ərzaq Nəzarəti tərəfindən icazə verilmişdir.

* Ərzaq Nəzarəti Gəncə vəkilinə müraciət edib, Şamaxı uyezdi Mərəzə anbarlarında cəm olmuş taxılın Bakıya göndərilməsini istəmişdir.

* Ərzaq Nəzarəti Şamaxı qaçqınları üçün qət olunmuş min put buğdanın Şamaxı anbarlarından alınıb, Şamaxı vəkilinə verilməsini Gəncə vəkilindən xahiş etmişdir.

* Ərzaq Nəzarətinə xəbər verilmişdir ki, Bakı tamojnusunda [gömrüyündə] 24 min put tütün vardır.

* Ərzaq Nəzarəti Gəncəyə xəbər vermişdir ki, hökumət əmri ilə Ticarət və Sənaət Nəzarəti nəzdində mal dəyişdirmə şöbəsi açılmışdır. Bundan belə mal dəyişdirmə məsələsi haqqında həman şöbəyə müraciət olunmalıdır.

* Cəfər Rəcəbova Tiflisdən bir vaqon qənd gətirib Azərbaycan dairəsində azad satışa qoyulmasına icazə verilmişdir.

* Ərzaq Nəzarəti Mixail Kuçnayevə

Bakıdan Tiflisə 6 vaqon balıq aparmasına icazə vermişdir.

## BİNƏQƏDİDƏN

1919-cu ilin yanvarın 3-də Binəqədi xalq evində biz Binəqədi müsəlman fəhlələri ictima [yığıncaq] quraraq məclisə əksəriyyəti-ara [səs çoxluğu] ilə Pirqulu Axnazarov sədr və Molla Həsən Qurban oğlu katib seçilir. Sədr axşam saat 6 tamamda məclisi açır. Bir natiq mart hadisatiəliməsini [kədərli mart hadisələrini] təsvir və mart hadisəsindən sonra müsəlmanların hali-dəhşətəngizini zikr edir. Sonra 8 aylıq siyasi övzanı [vəziyyəti] təsvirlə natiq, hürriyyət və təmini-hüquq məmləkəti olan İngiltərə dövlətinin, bütün dünyaya kəndi inqilabi-kəbiri [böyük inqilabı] ilə intibah səhifələri açmış olan Fransa dövlətinin və Vaşinqtonlar kimi əhrar [azad adamlar] vətəni olan Amerika cəmahiri-müttəhidəsinin [Birləşmiş Cümhuriyyətlərinin] tərəfindən paytaxtımıza iki aydan bəri gəlmiş olan general Tomson[un] bizə qarşı adilanə, şayani-təhsin və təqdir [bəyənilməyə və qiymətləndirilməyə layiq] rəftar və siyasətini, bütün hüququmuzu kəndimizə istirdad edən [geri verən] bəyənnamələrini, nəhayət hökumətimizi rəsmən Azərbaycanda qanuni külli-ixtiyar hökumət sandığını söyləyərək İngiltərə dövlətindən, Fransa, Amerika və İtaliya dövlətlərindən, şu dövlətlərin füqərayi-kasibəsindən [proletariatından] nəhayət dərəcədə razılıq izhar edir [razılığını bildirir]. *(Gurultulu, sürəkli alqışlar)*

Nəhayət Sülh Konfransının, yeni nəşət etmiş [meydana çıxmış] dövlətlərə birər yer verdiyini və hökumətimizin əsasını təhkim [möhkəmləndirmək] üçün bu yaxında Sülh Konfransına və ulu [böyük] dövlətlər paytaxtlarına nümayəndələr göndərəcəyini söyləyir. Nəticədə Azərbaycan türklərinin artıq əsarət altında yaşamayacaqlarını qeyd edir.

Sonra sədr cənabları bir çox danışıqdan sonra zeyldəki [aşağıdakı] qətnamələri təklif edir:

1) Azərbaycan Parlamanını təbrik və ona etimad.

2) "Znamya truda", "Naşe vremya" və "Vperyod" qəzetələrinə və bu kimi müfəttin [fitnəkar, şarlatan] qəzetələrə ciddi etiraz.

3) İngiltərə, Fransa və Amerika, İtaliya ümumcahan demokratiyasına teleqraf üzrə rizaməndlik [razılıq etmək] və onların tərəfindən Sülh Konfransına gələn nümayəndələrdən teleqraf üzrə 3 milyonluq azəri türklərinin hüququnu müdafiə etmələrini rica etmək.

4) Qəzetələrdə yazılır ki, Kəsbkarlar [Həmkarlar] İttifaqı iclasında, müsəlman fəhlələri tətil komitəsinə izhari-etimad etmişlərdir [etimad göstərmişdilər]. Bu mütləq yanlışdır. Müsəlman fəhlələri iqtisadi cəmiyyətlərdə ümum fəhlələrlə müttəfiq və müttəhiddirlərsə [birlikdədirlərsə] də, siyasi işlərdə yalnız Azərbaycan Cümhuriyyətinə etimad edirlər.

5) Parlaman, Kəsbkarlar İttifaqına üç yer vermişdir. Fəqət Kəsbkarlar buna razı olmayaraq, ümum Bakı fəhlələri tərəfindən Parlamana etiraz etmişlər. İctima, Kəsbkarlar İttifaqının şu xudsəranə [özbaşına] etirazına etiraz edərək o üç yerin ikisini müsəlman fəhlələrinə verməyi xahiş edir.

6) Bu yaxında müsəlman fəhlələri ictiması çağırılacaqdır.

*Sədr: Pirqulu Axnazarov*
*Katib: Həsən Qurban oğlu*

**AZƏRBAYCANDA**

**Göyçaydan bizə yazırlar:**

İstibdad zamanı öz balalarını rus ruhu ilə ruhlandırmaq və rus məktəbinə rəğbət etmək istəməyən müsəlman camaatı, məktəblərin milliləşmək xəbərini eşitcək, özlərini pərvanə kimi maarif işığına tullamağa hazır oldular. Millət balalarının bu vaxta kimi mal güdməkdən başqa bir işə məşğul olmayıb, avara və sərgərdan gəzməklərini nəzərdə tutan, daha yatmaq vaxtı deyil deyib qalxışan Göyçay uyezdinin bəzi kənd camaatları, xalq məktəbləri müfəttişinin Göyçaya gəlməyini bilib, öz tərəflərindən vəkilləri vasitəsilə məsləhətnamələr pişnihad [təqdim] ilə təveqqe etmişlər ki, onlar üçün kəndlərində məktəb açılsın. Lakin müfəttiş cənabları, kənd vəkillərinə müəyyən bir cavab vermədiyindən, qara camaat arasında təzə parlamış maarif həvəsi sönmüşdür. Çünki vəkillər kəndlərinə qayıtdığı zaman camaat bir yerə cəm olub öz vəkillərindən kənddə məktəb açılacaq şad xəbəri əvəzində məyus gəldiklərini görüb onlardan betər məyus oldu. Ləkçılpaq, Kürdəmiş, Yalman, Qarabaqqal kimi kəndlərdə bu vaxta kimi məktəb yoxdur. Qaramadyan, İnçə, Müsüslü, Zərdab, Kəndəbil, Müskürlü və bunlar kimi bir çox böyük kəndlərdə məktəblər naməlum səbəblərə görə qapadıldı və ənqərib [yaxın] zamanda Göyçay uyezdində qalan xalq məktəbləri də qapadılması gözlənir. Bu da müəllimlər vaxtında məvacib almadığından və haqları tapdalanmağından nəşət edir [irəli gəlir]. Üç aydır ki, müəllimlər məvacib almayırlar.

Xülasə, məktəb barəsində Göyçay uyezdindən məlumat verib Maarif naziri həzrətlərindən rica edirik ki, vaxt keçməmiş, bu kəndlərdə məktəblərimiz olsun, ta ki, camaat məyus olmayıb, mənfəət görsünlər.

*Əlif. Əlif.*

**Gəncədən bizə yazırlar:**

Mövlud günü ibtidai məktəblərin müəllim və müəllimələri, mütəəllim və mütəəllimələri [oğlan və qız şagirdləri] hazır olduqları halda “Tavuqçu” ibtidaisinin mütəəllimlərinin və Adıgözəlov məktəbinin mütəəllimlərinin iştirakı ilə gündüz “Zarya-Şəfəq” teatrosunun salonunda Mövludi-nəbiyə dair şeirlər və milli şərqilər oxunduqdan sonra, həmin “Tavuqçu” məktəbinin mütəəllimləri tərəfindən “Çalışqan mütəəllim” nam [adlı] teatro, ümum Gəncə mütəəllim və mütəəllimələri üçün gündüz pulsuz mövqeyi-tamaşaya qoyuldu. Həmin günün axşamı müəllimələrdən Xuraman xanım, Fəramuş xanım, Səriyyə xanım mütəəllimələri ilə iştirak etdilər.

Bə’dəhu [sonra] varid olmuş [gəlmiş] möhtərəm artistlər iştirak edərək axşamına “Elan bəlası yaxud vaxtın var” və “Pulsuzluq” əsərləri “Tavuqçu” məktəbinin “Elmə doğru” cəmiyyətinin nəfinə [xeyrinə] oynanıldı və cəmiyyətlərinə 800 manat daxil oldu. Və əlavə Gəncə qəzasının maarif müfəttişi Cavad bəy Cuvarlinski cənablarından “Tavuqçu” məktəbi-

nin yetim mütəallimlərinə 200 manat ianə verildi. Həmin gün sair ibtidai məktəblərin müəllim və mütəallimləri tərəfindən 81 manat ianə olaraq gəlmişdir. Dübarə, Qafar Kərbəlayi Qurban oğlu 25 manat, Yusif çəkməçi 20 manat və Yaqub Mənsur oğlu 25 manat, Qara Məşhədi Hüseyn oğlu 15 manat, İsmayıl Hüseynqulu oğlu 15 manat ianə olaraq həmin cəmiyyətin nəfinə verdilər. Bu yuxarıda zikr olunandan anlaşılır ki, camaatımızla bərabər ibtidai məktəblərin mütəallim və mütəallimələrində də işləmək, milləti sevmək və maarifə çalışmaq hissi oyanmışdır. Və həm də demək olar ki, bu onların mütəallimlik həyatında ancaq birinci addımlarıdır. Bu xüsusda Allahu-təaladan tofiq [kömək] diləyib deyirəm ki, yaşasın bu yolda çalışan möhtərəm müəllim və müəllimələr və kəndi tərəfimdən yuxarıda mövludi-nəbi münasibətilə ianə ilə və ya işlə iştirak edən cənablara qarşı təşəkkürümü izhar və bəyan edirəm.

*"Tavuqçu" məktəbinin müdiri:*
*Paşa Hüseynzadə*

## İANƏ

Artist Mirzə Muxtar Məhəmmədov nəfinə [xeyrinə] olaraq idarəmizə aşağıda göstərilən zəvatdan [şəxslərdən] ianə gəlmişdir.

Şəfi bəy Rüstəmbəyov- 30 manat
Ceyhun bəy Hacıbəyli - 25 manat
Əliabbas Rzazadə- 25 manat
Hacı bəy Axundov- 25 manat
Cəmi 105 manat

**Yeni güşad edilmiş [açılmış]**
**Dardanel lokantası**

Hər gün təmiz və ləziz yeməklər hazırdır. Təbaxətdə [aşbazlıqda] fövqəladə ixtisas kəsb eyləmiş [qazanmış] olan aşçımızın təhti-nəzarətində [nəzarəti altında] hər dürlü Asiya və Avropa yeməkləri mövcud bulunur. Lokantada piano və skripkaçılar tərəfindən əhviyeyi-lətifə tərənnümsaz olmaqdadır [lətif havalar çalınmaqdadır]. Qiymətlərin fiatı əhvəndir [aşağıdır, ucuzdur]. Vorontsovski caddədə, Parapet qarşısında. Telefon nömrə 59-40. Müdir: Balabəy Xəlilbəyli.

* * *

Bu günlərdə müqtədir şairlərimizdən **Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin** "İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah" adlı mənzum əsərinin birinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

*b. 4 – 3*

**Doktor**
**Doktor Samuil İzrailoviç**
**Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Qoldqor-Fradkinin**
**Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607*

**Həkimlərin xüsusi gecə və gündüz növbələri**

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Leonid Ter-Avanesov**

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır.

Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi.

Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

*2627*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

**Türk təqvimi**
**Yeni və əski üsul ilə türk təqvimi**

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır.

Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə "Azərbaycan" qəzetəsi mətbəəsində.

*b-38* *10-1*

**AXŞAM TAMAŞASI**

Hökumət Teatrosunda (sabiq Mailov) düşənbə [bazar ertəsi] günü, yanvar ayının 6-sında 1919-cu ildə Hacıbəyov Qardaşlarının müdiriyyəti artistləri iştirakı ilə bu mövsümdə əvvəlinci dəfə olaraq təntənəli və qayət gözəl surətdə Osmanlı tarixindən götürülmüş, mövqeyi-tamaşaya qoyulacaqdır:

***Sultan Əbdülhəmidin xəl'i [taxtdan salınması] və yaxud zülm və istibdadın axırı***

Faciə 5 pərdədə

Əsəri-Rza Zaki

Bu faciədə Ənvər və Niyazi bəylərin Əbdülhəmidi taxtdan endirib və onun yerinə Sultan Məhəmmədi-xamis [V Məhəmməd] həzrətlərinin əyləşməsi göstəriləcəkdir.

Səhnədə məşhur artistimiz Mirzəağa Əliyev millətə dair şeirlər oxuyacaqdır.

İştirak edir cəmi artistlər.

Tamaşa başlanacaq axşam saat 7-də.

Bu oyuna məxsus libaslar hazırlanmışdır.

Biletlər indidən satılır.

Rejissor: Rza Darablı

Müavin: Xəlil Hüseynov

Səhnəni tərtibə salan müdir: Hüseyn Rəhimov

*2633*

***Müdir və baş mühərrir: Ceyhun bəy Hacıbəyli***

## QEYD VƏ ŞƏRHLƏR

**Məhv olan millət kütləsinin naləsi:**
**İmdad diləyi**

səh. 83. "Tuğut": qəzetdə "Tuvut" kimi getmişdir.

"Əqəll: Hüseyn Hüseynov": "ən kiçik; ən az" kimi mənalara gələn "əqəll" sözü imzadan əvvəl işlədildiyində "aciz qulunuz; kiçiyiniz" kimi təvazökarlıq ifadə edirdi.

**Məhv olan millət kütləsinin naləsi:**
**Yenə imdad istəyirlər**

səh. 84. "*Səvadi eyni telegraf ki...*": Farsca. Mənası: *"Naxçıvan, Ordubad, Şərur sakinləri vəkillərindən və Təbrizdə yerli hökumət rəisi Əmirzadədən Qafqaz Müsəlmanları Cümhuriyyəti dövlətinin konsulxanasına çəkilən teleqrafın mətni.*

*Azərbaycan hökumətinin konsulu cənab Rauf bəyin xidmətinə: Ermənistan silahlı qüvvələri Qəmərli, Sədərək, Dəmirçi və bir çox kəndləri qətliam edərək hər tərəfdən üstümüzə hücum edirlər. Şərurda arvad-uşaqlar çöllərə qaçaraq tələf olurlar. Bu barədə vəliəhd həzrətlərinin hüzuruna ərz etmişik. O alicənabdan xahiş edir və yalvarırıq ki, Araz çayı sahillərində olan bir milyon arvad-uşağa rəhm edərək bu bəlanın qarşısını alsınlar. Böyük dövltətlərin konsullarını, xüsusən ingilis və Amerika dövlətlərinin konsullarını xəbərdar edin ki, tez bir zamanda ermənilərin vəhşicəsinə hərəkatının qarşısını alıb bizi xilas etsinlər. Əlavə olaraq xahiş edirik ki, bizim halımızı teleqrafla Azərbaycan hökumətinə, Tiflis və Bakıda olan ingilis dövləti [nümayəndələrinə] xəbər verəsiniz.*

*Naxçıvan, Şərur və Ordubad islam əhalisi sakinləri, yerli hökumət rəisi Əmirzadə."*

"Qafqaziya müsəlmanları cümhuri": Azərbaycan Cümhuriyyəti nəzərdə tutulur.

**Məhv olan millət kütləsinin naləsi:**
**Zəngəzur əhaliyi-islamiyyəsinin fəryadı**

səh. 84. "əsakiri-mənsurə": XIX əsrin əvvəllərində Osmanlı sultanı II Mahmud, bir neçə əsrdən etibarən Osmanlı hərbi təşkilatının əsas gücünü təşkil edən yeniçəri ocağını ləğv edərək, onun yerində "Əsakiri-mənsureyi-Məhəmmədiyyə" ("müzəffər islam əsgərləri") adlı təşkilatı qurdu. "Müzəffər əsgərlər" mənasına gələn "əsakiri-mənsurə" termini bu tarixdən etibarən Osmanlı ordusunu ifadə etmək məqsədi ilə işlədilmişdir.

səh. 85. "Milli Məclis": Zəngəzur müsəlmanlarının Milli Məclisi nəzərdə tutulur.

**Sülh ətrafında:**
**Sülh konfransı heyəti**

səh. 86. "Redinq": I Redinq markizi Rufus Ayzeks nəzərdə tutulur.

**Qəzetələrdən:**
**Ukrayna inqilabiyyun firqələrinin əsası**

səh. 88. "Zəhmət Konqresi": Ukrayna Xalq Respublikası Direktoriyasının hakimiyyəti dövründə ali qanunvericilik orqanı olan Ukrayna Zəhmətkeşlərinin Konqresi nəzərdə tutulur.

**Qəzetələrdən:**
**Lehistan Demokratik Cümhuriyyəti**

səh. 88. Regent Şurası [Rada Regencyjna]: 1917-ci ilin noyabrından 1918-ci ilin noyabrına qədər Polşa Krallığının hökuməti.

"...Lublin[dəki] milli hökumət...": 1918-1939-cu illərdə mövcud olmuş Polşa Respublikası hökuməti nəzərdə tutulur.

**Türküstan heyəti-mürəxxəsəsi ilə müsahibə**

səh. 89. "Tələt Kabinəsi": Tələt paşa Hökuməti 4 fevral 1917 – 8 oktyabr 1918-ci il tarixlərində hakimiyyətdə olmuşdur.

"İzzət paşa Kabinəsi": İzzət paşa Hökuməti 14 oktyabr – 8 noyabr 1918-ci il tarix-

lərində hakimiyyətdə olmuşdur.

"Tofiq paşa Kabinəsi": Tofiq paşa Hökuməti 11 noyabr 1918 – 3 mart 1919-cu il tarixlərində hakimiyyətdə olmuşdur. Əhməd Tofiq paşa bundan əvvəl (1909-cu ildə) və sonra (1920-1922-ci illərdə) da Baş Nazir olmuşdur.

"Tofiq paşa Kabinəsi etilafçılardandır...": "Etilafçı" deyərkən, Hürriyyət və Etilaf Partiyası nəzərdə tutulur.

səh. 90. "Sultan həzrətləri": söhbət Osmanlı sultanı VI Məhməddən gedir.

səh. 92. "M. H.": bu imza Hənəfi Zeynallıya məxsusdur.

**Bakı xəbərləri**

səh. 93. "...dair Bələdiyyə İdarəsinə...": qəzetdə səhvən "...daireyi-Bələdiyyə İdarəsinə..." getmişdir.

**Azərbaycanda:**
**Göyçaydan bizə yazırlar**

səh. 96. "...ta ki camaat məyus olmayıb...": "ta ki" yerinə qəzetdə səhvən "təzə" getmişdir.

**Azərbaycanda:**
**Gəncədən bizə yazırlar**

səh. 96. "Tavuqçu": Gəncədə "Toyuqçu" küçəsi və məhəlləsi nəzərdə tutulur.

"Səriyyə xanım": güman ki, Sürəyya Axundzadə olmalıdır.

**(Elan)**

səh. 97. "Bu günlərdə müqtədir şairlərimizdən...": bu elanın əvvəli qəzetdə əskik çıxmışdır.